

# Ənənələri yaşadanlar

**Xalq artisti, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabovun 70 yaşı tamam oldu. Azərbaycan musiqi mədəniyyətinin inkişafında göstərdiyi xidmətə görə o, ölkə başçısı İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif edildi. Bu sevgidən hamımıza pay düşdü.**

50 ildən artıqdır ki, oxucular Azərbaycanın musiqi həyatında baş verən ən mühüm və əlamətdar hadisələr barədə məlumatı məhz Ramiz Zöhrabovun məqalələrindən almış, görkəmli bəstəkarlarımızın yaradıcılıq portretlərilə tanış olmuş, onun xalq musiqisi, muğam və aşıq sənəti haqqında maraqlı yazılarını oxumuşlar. Onu geniş oxucu kütləsinə təqdim etməyə ehtiyac yoxdur, çünki bir tənqidçi-publisist və musiqi təbliğatçısı kimi çoxdan özünü xalqa tanıtmış və sevdirmişdir.

Üzeyir Hacıbəyovdan başlayaraq milli musiqişünaslığımızda kök salmış ən yaxşı ənənələr və musiqi sənətinin bugünkü siması barədə təsəvvür əldə etmək üçün R.Zöhrabovun yaradıcılığına nəzər salmaq kifayətdir. O, nadir musiqişünaslardandır ki, fəaliyyətini ilk gündən müxtəlif istiqamətlərə yönəldərək həm elm sahəsində, həm də tənqid və publisistikada özünü eyni dərəcədə uğurla sınamış, musiqi təbliğatçısı və pedaqoq kimi böyük iş aparmışdır. R.Zöhrabovun tələbəlik illərindən diqqət mərkəzinə çəkdiyi şifahi ənənəli musiqimizin öyrənilməsi məsələsinə maraq sonrakı illərdə getdikcə artmışdır. Onun ildən-ilə cilalanan peşəkarlığı, əldə etdiyi təcrübə sayəsində hər yeni tədqiqatı milli musiqişünaslığımıza töhfə olmuşdur. Hazırda muğam sənətinə dövlət səviyyəsində böyük qayğı və diqqətin şahidi olduğumuz bir zamanda, bu qədim və zəngin ənənənin yaşayıb inkişaf etməsi naminə beynəlxalq əhəmiyyətli unikal layihələrin həyata keçirildiyi bir dövrdə muğamın öyrənilməsinə də maraq artmışdır. R.Zöhrabov hələ ötən əsrin 60-cı illərindən xalq musiqisi və muğam sənətinin tədqiqilə məşğul olmağa başlamışdır. Müəllifi olduğu onlarca kitab arasında "Azerbaydjanskie tesnifı" (Moskva, 1983), "Azərbaycan təsnifləri" (Təbriz, 1991), "Muğam" (Bakı, 1991), "Teorutiçeskie problemı Azerbaydjanskoqo muqama" (Bakı, 1992), "Azərbaycan modal musiqisi" (Tehran, 1999, fars dilində), 2000-ci illərdə işıq üzü görmüş "Şifahi ənənəli Azərbaycan professional musiqisi", "Çahargah" muğam dəstgahının nəzəri əsasları", "Rast" muğam dəstgahının nəzəri əsasları", "Zərbi-muğamlar", "Azərbaycan rəngləri: janr, lad-məqam və melodik xüsusiyyətlərin tədqiqi" və digər dəyərli tədqiqatlarını milli muğamşünaslığın klassik nümunələri adlandıra bilərik. Eyni zamanda, R.Zöhrabov özünün elm sahəsindəki nailiyyətlərindən bəhrələnərək musiqisevərləri maarifləndirmək məqsədilə elmi-populyar səpkili işləri ilə də tanınan nadir musiqişünaslarımızdan biridir. Muğamın təbliğ olunmasında Ramiz müəllimin xidmətləri böyükdür. Azərbaycan televiziyasında apardığı "Xalq musiqisi xəzinəsindən", "Xalq musiqisi inciləri" adlı silsilə verilişlərdə muğam sənəti və onun ifaçıları ilə bağlı maraqlı söhbətləri minlərlə sənətsevəri, müxtəlif peşə sahiblərini mavi ekran qarşısında toplayıb, onların milli musiqimizə olan məhəbbətini daha da artırıb. Bu baxımdan "Muğam" kitabı da milli musiqişünaslığımızda elmi-populyarlaşdırıcı tənqidin nadir nümunələrindən biri hesab edilə bilər. Bu kitabda muğama aid dəyərli məlumat bütün dolğunluğu ilə, eyni zamanda hər kəs üçün anlaşıqlı və maraqlı olan bir tərzdə təqdim edilir. R.Zöhrabovun elmi fəaliyyətinin digər istiqaməti - bəstəkar yaradıcılığının öyrənilməsi də bilavasitə publisistika sahəsindəki işi ilə bağlı olmuşdur. Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuş "Hacı Xanməmmədov" (1992), "Rauf Hacıyev" (1993), "Ramiz Mustafayev" (1995), "Bəstəkarlarımız haqqında söz" (1995), "Bəstəkarlarımızın portreti" (1997) kitabları, Üzeyir Hacıbəyov, Süleyman Ələsgərov, Fikrət Əmirov, Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Hacı Xanməmmədov, Arif Məlikov, Vasif Adıgözəlov, Şəfiqə Axundova, Tofiq Bakıxanov, Aqşin Əlizadə və bir çox başqa bəstəkarlar haqqında həm elmi, həm publisistik xarakterli məqalələri musiqisevərlər üçün maraqlı və dəyərli mənbələr olmuşdur.

Onun müəllifi olduğu dərslik və dərs vəsaitləri isə ali və orta musiqi məktəblərinin tədris prosesi üçün zəruri olan ədəbiyyat siyahısında birinci yerdə olan nümunələrdir. Ötən əsrin 50-ci illərindən başlayaraq son onilliyinə kimi R.Zöhrabov bəstəkar kimi də fəaliyyət göstərmiş, orkestr və kamera əsərlərinin müəllifi olmuşdur.

Bütün bunlarla yanaşı, R.Zöhrabovun Bakı Musiqi Akademiyasında kafedra müdiri kimi daşıdığı məsuliyyəti, onlarca buraxılış işi, magistrlik və namizədlik dissertasiyalarına rəhbərliyini, həmkarlarının bir çox işlərinin redaktoru kimi çıxış etməsini, Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert şurasının sədri, 20 ilə yaxın müddətdə Azərbaycan Bəstəkarlar İttifaqının katibi kimi göstərdiyi fəaliyyəti də nəzərdən keçirsək, üstəlik, respublika və beynəlxalq əhəmiyyətli müsabiqələrdə münsif kimi işini də qeyd etsək, bunların bir şəxs tərəfindən yerinə yetirilməsinə heyrətlənməyə bilmərik. Bu gün Ramiz Zöhrabov yaradıcılığının kamillik zirvəsinə çatmış alim, tənqidçi-publisist, ictimai xadimdir.

**Şəhla HƏSƏNOVA,**
*Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının professoru*